*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 26 dekabr 2018-ci il | № 100 (2316) | Qiymәti 25 qəpik

# Dünya azərbaycanlılarına



Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Milli birliyimizin rəmzi kimi hər il geniş qeyd etdiyimiz 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə sizi səmimi qəlbdən salamlayır, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideyalarını yaşadan müstəqil dövlətimiz milli həmrəyliyin gücləndirilməsinə xüsusi əhəmiyyət verir, dünya azərbaycanlılarının mədəni-mənəvi birliyinin daha da möhkəmləndirilməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirir. Biz xarici ölkələrdə məskunlaşmış həmvətənlərimizin doğma Azərbaycanla əlaqələrinin dərinləşdirilməsi və ümummilli məsələlərin həllində yaxından iştirakının təmin edilməsi istiqamətində irəli sürülən səmərəli təşəbbüslərə hər zaman dəstək veririk.

2018-ci il xalqımızın tarixində şərəfli yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin geniş şəkildə keçirilməsi ilə yaddaşlarda qalacaqdır. Belə əlamətdar yubileyin təntənə ilə qeyd edilməsi həmvətənlərimizin qəlbində azadlıq və istiqlal duyğularını, ölkəmizin zəngin tarixi ilə haqlı iftixar hissini daha da gücləndirir. Bu gün əminliklə demək olar ki, 100 il əvvəl mühacir həyatı yaşamağa məcbur olmuş Cümhuriyyət qurucularının və onların varislərinin Azərbaycanı müstəqil və qüdrətli dövlət kimi görmək arzuları artıq xoş gerçəkliyə çevrilmişdir.

Dünyada gedən mürəkkəb geosiyasi proseslərə, müharibə və silahlı qarşıdurmalara, qaçqın və məcburi köçkün problemlərinə, qlobal iqtisadi çətinliklərə baxmayaraq, Azərbaycan Respublikası qarşıya qoyduğu böyük məqsədlərə doğru inamla irəliləyir. Ölkəmizin sosial-iqtisadi sahədə əldə etdiyi uğurların nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilməsi bunu bir daha əyani surətdə sübut edir. Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan ötən illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşmış, 10 ən islahatçı dövlət siyahısına daxil edilmişdir. Ölkəmizin təşəbbüsü və yaxından iştirakı ilə irimiqyaslı transmilli layihələr uğurla icra olunmuşdur. 2018-ci ildə Avrasiyanın enerji xəritəsinin zənginləşməsində mühüm rol oynayan "Cənub Qaz Dəhlizi"nin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin istifadəyə verilməsi, həmçinin Ələt-Astara magistral avtomobil yolunun açılışı ilə Azərbaycan ərazisində "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi layihəsi üzrə bütün işlərin başa çatdırılması dövlətimizin iqtisadi potensialının artması, regionun tranzit və logistika mərkəzinə çevrilməsi, geoiqtisadi mövqeyinin güclənməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Cari ildə həm də növbəti telekommunikasiya peyki "Azerspace-2"nin orbitə buraxılması respublikamızın müasir rabitə və informasiya texnologiyaları sahəsində qazandığı nailiyyətlərin bariz təzahürüdür.

Ölkəmiz inkişaf etdikcə, daha qlobal xarakterli vəzifələri həll etmək imkanları da artır. Qarşımızda Ermənistanın hərbi təcavüzü nəticəsində işğal edilmiş torpaqlarımızın azad olunması kimi taleyüklü vəzifə dayanır. Azərbaycan pozulmuş ərazi bütövlüyünün bərpası yolunda ardıcıl və məqsədyönlü siyasət həyata keçirir. Soydaşlarımız da, öz növbəsində, yaşadıqları ölkələrin yüksək dairələrinin və nüfuzlu beynəlxalq təşkilatların diqqətinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə yönəldilməsində, tarixi həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında fəallıq nümayiş etdirməlidirlər. Azərbaycanın inkişafı və dünya birliyində mövqeyini möhkəmləndirməsi üçün hər bir həmvətənimiz ümummilli məqsədlər ətrafında sıx birləşməli, diaspor təşkilatlarının fəaliyyəti daha çevik əlaqələndirilməlidir. Əminəm ki, dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq, bütün soydaşlarımız və həmvətənlərimiz bu prinsiplərə əsaslanaraq qarşıdakı illərdə də üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsində qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə səadət, firavanlıq və işlərinizdə uğurlar diləyirəm!

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 dekabr 2018-ci il.



"Qalib Azərbaycan Ordusunun əsgəri olmağı arzulayıram"

2-ci səhifədə



"Ordun varsa, yurdun var"

4-cü səhifədə



Dünya azərbaycanlılarını birləşdirən möhtəşəm gün

5-ci səhifədə



MOİK idmançılarının növbəti uğuru

8-ci səhifədə

# Heydər Əliyev adına AAHM-də yeni obyektlər istifadəyə verilib

*Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində yeni istifadəyə verilən bir sıra obyektlərin açılışında iştirak edib.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə Müdafiə Nazirliyinin rəhbərliyi hərbi məktəbin ərazisində ucaldılmış ümummilli liderimiz Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq Ulu Öndərin xatirəsini ehtiramla yad ediblər.

Sonra Müdafiə naziri və nazirliyin digər rəhbər heyəti yeni tikilən klubun açılışını ediblər. Müdafiə nazirinə məlumat verilib ki, iki mərtəbəli klubda 520 nəfərlik iclas zalı, Heydər Əliyev muzeyi, kinoteatr, brifinq zalı və digər xidməti otaqlar var. Binada avtomatik işıqlandırma sistemi quraşdırılıb, klub akustika və mərkəzləşdirilmiş kondisioner sistemlərilə təchiz olunub. Ətrafda abadlıq işləri aparılıb, asfalt döşənib və yaşıllaşdırma sahəsi salınıb. Bütün otaqlar mebel və kommunikasiya xətləri ilə təmin olunub.

Müdafiə naziri və rəhbər heyət tədris ocağında əsaslı təmir işləri aparılmış qış üzgüçülük hovuzu və atıcılıq tiri ilə də yaxından tanış olub.

Binanın açılışından və ərazi ilə tanışlıqdan sonra Müdafiə naziri hərbi qulluqçuların xidməti, sosial-məişət, mənzil istismar və kommunal şəraitlərinin daha da yaxşılaşdırılması ilə bağlı tapşırıqlar verib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi təhsil müəssisəsinin zabit və kursantları ilə görüşərək Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən Azərbaycan Ordusunda aparılan islahatları, hərbi təhsil sistemində həyata keçirilən vacib tədbirləri, təşkilat-ştat strukturunun təkmilləşdirilməsi məsələlərini, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığında qarşıda duran mühüm vəzifələri diqqətə çatdırıb.

Müdafiə naziri döyüş hazırlığının artırılması məqsədilə silahlanmaya ən müasir döyüş texnikası, raket və artilleriya sistemləri, hərbi təyinatlı digər vasitələr qəbul edildiyini, modernləşmə aparıldığını, müxtəlif səviyyəli genişmiqyaslı təlimlərin keçirildiyini, yeni poliqonların tikildiyini və digər istiqamətlərdə həyata keçirilən fəaliyyətləri diqqətə çatdırıb.



General-polkovnik Zakir Həsənov bildirib ki, hərbi qulluqçuların təminatının, sosial-məişət şəraitinin, sağlamlıq məsələlərinin daim diqqətdə saxlanılması və yaxşılaşdırılması üçün yeni hərbi şəhərciklərin, daimi və xidməti mənzillərin istifadəyə verilməsi də dövlətimizin prioritet istiqamətlərindəndir.

Nazir qeyd edib ki, Azərbaycan Ordusunun hər bir zabiti rəhbərlik etdiyi kollektivə şəxsi nümunə və dövlətə sadiq olmalı, Vətənə və torpağa sevgi, düşmənə nifrət hissi ilə xidmət etməlidir.

Müdafiə naziri çıxışının sonunda hərbi məktəbin şəxsi heyətinə xidmətlərində uğurlar arzulayıb və onları qarşıdan gələn 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edib, əmin olduğunu bildirib ki, hər bir hərbi qulluqçu üzərinə düşən vəzifənin məsuliyyətini dərindən dərk edərək Vətənimizin müdafiə qabiliyyətinin daha da güclənməsinə dəyərli töhfəsini verəcəkdir.

*Nümunəvi xidmət*

# "Qalib Azərbaycan Ordusunun əsgəri olmağı arzulayıram"

*Bu gün müstəqil Azərbaycan Respublikasının güclü ordusu, sağlam cəmiyyəti və ən əsası bütün dünyada böyük nüfuzu var. Bu uğurların əldə edilməsində Azərbaycan Ordusunun, onun şəxsi heyətinin misilsiz xidmətləri danılmazdır. Bu xidmətlər isə daim yüksək qiymətləndirilib, diqqət və qayğıdan uzaq qalmayıb. Ölkəmizin 20 faiz ərazisinin işğal altında olduğu bir vaxtda Vətən, millət, torpaq uğrunda savaş meydanına atılanların diqqət mərkəzində saxlanılması Müdafiə Nazirliyi rəhbərliyinin qarşısında duran prioritet məsələlərdən biridir.*

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və digər rəhbər şəxslərin hər dəfə ön xətdə yerləşən hərbi hissələrimizə səfəri, şəxsi heyətin məişət şəraiti ilə tanışlığı və hərbi qulluqçularımızı qiymətli hədiyyələrlə mükafatlandırması dediklərimizin bariz sübutudu. Səfərlərin əsas məqsədi əsgərlər arasında hərbi vətənpərvərliklə bağlı təbliğat işlərini aparmaq, əsgərlərdə orduмuza olan inamın artırılmasına böyük dəstək olmaqdır.

Müdafiə nazirinin son səfəri zamanı mənəvi dəstək olduğu və qiymətli hədiyyə ilə mükafatlandırdığı hərbçilərdən biri də əsgər Vüqar İsmayılovdu. Söhbət zamanı əsgər Vüqar İsmayılov qeyd etdi ki, uğur qazanmaq üçün zəhmət çəkmək lazımdı: "Zəhmət çəksən, bəhrəsini görərsən. Uğur qazanmaq üçün ən əsası nizamnamələrin tələbləri çərçivəsində komandirlərin, böyük rəislərin təcrübələrindən yararlanmaq lazımdı. Qazanılan təcrübənin, əldə edilən biliklərin nəticəsidir ki, bu gün Müdafiə naziri general-polkovnik Zakir Həsənovun qiymətli hədiyyələrlə təltif etdiyi hərbi qulluqçuların arasında mənim də adım var. Müdafiə nazirinin gəlişi və adımın təltif olunanların sırasında olması sevindirici, qürurverici haldır. Hər za-



man general-polkovnik Zakir Həsənovun hərbi hissələrə gəlişini, televiziya, mətbuat vasitəsilə izləyirdik. Cənab nazirimizlə canlı ünsiyyətdə olmaq, ondan hədiyyə almaq sözlə izah etməyə çətinlik çəkdiyim hisslər yaşamağıma səbəb oldu. Həmin tarixi anı yaşadığıma, qiymətli hədiyyə aldığıma görə özümü xoşbəxt əsgər hesab edirəm. Bundan sonra mənim üzərimə məsuliyyət ikiqat düşür. Müdafiə nazirinin göstərdiyi etimadı doğrultmaq bundan sonra da əsas vəzifə borclarımdan biri olacaq."

"Azərbaycan bizim Vətənimizdir, ancaq hər birimizin ana yurdumuz var. Əslən Cəbrayıl rayonundan olduğuma görə ən böyük arzum Azərbaycan Ordusunun əsgəri kimi ana yurduma qədəm basmaq, valideynlərimə, o cümlədən xalqıma qələbə sevincini bəxş etməkdir", - deyə Vüqar İsmayılov söhbətinə davam etdi. - Uzun illərdir ki, torpaqlarımızın 20 faizi erməni separatçılarının işğalı altındadır. Buna baxmayaraq, Azərbaycan Ordusu gündən-günə güclənir. Atam da bu orduda 27 il baş gizir kimi xidmət edib. O, hər zaman bildirir ki, artıq ordumuz müstəqilliyimizin ilk illərinin ordusu deyil. Ordumuzun səviyyəsi çox yüksəkdir. Azərbaycan Ordusu bu gün dünyanın ən güclü ordularından biridir. Aprel döyüşlərində ordumuz tariximizin yeni mübarizə səhifələrini yazdı. Hərbi qulluqçular düşmən tapdağı altında olan torpaqlarımızı geri almaq üçün böyük şücaət göstərdilər. Bütün bunlar deməyə əsas verir ki, ordumuz qələbəyə çox yaxındır. Güclü ordunun əsgəri kimi inanırıq ki, komandirlərimizin rəhbərliyi ilə döyüşə atılmağa, hər zaman torpaqlarımızı - Şuşanı, Xankəndini, Cəbrayılı, Zəngilanı, Ağdamı... azad etməyə, üçrəngli bayrağımızı ana yurdumuzda dalğalandırmağa, valideynlərimizə və ən əsası xalqımıza sevinc bəxş etməyə hazırıq. Biz, yaxşı bilirik ki, dövlətimizə nizamnamələrin tələblərini yüksək səviyyədə yerinə yetirməklə xidmət etməliyik. Xalqımız hər birimizdən şəxsi fədakarlıq, mətanət, mərdlik və qəhrəmanlıq gözləyir. Biz Ali Baş Komandanımızın əmri ilə erməni işğalçıları tərəfindən zəbt olunmuş torpaqlarımızı işğaldan azad etməliyik və mütləq azad edəcəyik! Ən böyük arzum, qalib Azərbaycan Ordusunun əsgəri kimi Qələbə paradında iştirak etməkdir".

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Mehdi Hüseynzadənin 100 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib

*Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 1941-1945-ci illər müharibəsində faşizmə qarşı mübarizədə apardığı çoxsaylı uğurlu kəşfiyyat əməliyyatları və nümayiş etdirdiyi misilsiz hərbi şücaətləri ilə böyük şöhrət qazanmış və Azərbaycan xalqının zəngin tarixi hünər salnaməsinə şanlı səhifələr yazmış Mehdi Hüseynzadənin 100 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib.*

Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, keçirilən tədbirdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Təhsil naziri Ceyhun Bayramov, Mədəniyyət naziri Əbülfəs Qarayev, Mehdi Hüseynzadənin ailə üzvləri, Bakı Qarnizonunun hərbi hissələrinin, xüsusi təyinatlı təhsil müəssisələrinin zabit və kursantları, dövlət universitetlərinin professor, müəllim və tələbələri, veteranlar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə tədbir iştirakçıları Mehdi Hüseynzadənin həyat və döyüş yoluna, eləcə də xalqımızın ümummilli lideri Heydər Əliyevin əfsanəvi partizan haqqında həqiqətlərin üzə çıxarılmasında, ölümündən 13 il sonra ona Sovet İttifaqı Qəhrəmanı fəxri adının verilməsində, ümumiyyətlə Mehdi Hüseynzadənin xatirəsinin əbədiləşdirilməsində müstəsna xidmətləri barədə qiymətli fotolar və sənədlər təqdim edilib. Qəhrəmanın uşaqlıq və təhsil illərini, Stalinqrad uğrunda döyüşlərdə iştirakını, əsirlikdə Azərbaycan naminə xidmətlərini, eləcə də, Sloveniyanın milli azadlığı uğrunda sadiq bir əsgər kimi iştirakını əks etdirən nadir fotolar böyük maraq doğurub.





Mərasim başlamazdan əvvəl ulu öndər Heydər Əliyevin, İkinci Dünya müharibəsində həlak olan həmvətənlərimizin, Azərbaycanın müstəqilliyi, azadlığı, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən oğul və qızlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə dövlət himnimiz ifa olunub.

Tədbirdə "Mehdi Hüseynzadənin 100 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası prezidentinin 23 iyun 2018-ci il tarixli Sərəncamı bir daha nəzərə çatdırılıb.

Sonra Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, ehtiyatda olan polkovnik Abdulla Qurbaninin ssenarisi və rejissorluğu ilə hazırlanmış "Mən öz Xəzərimə vurğunam, ey dost!" yubiley tamaşası nümayiş etdirilib. Mehdi Hüseynzadənin bəlli olmayan, son vaxtlar üzə çıxarılmış şeirlərinin istifadə edildiyi tamaşada Əməkdar artistlər Azad Şükürov, Səməyə Sadıxova, Anar Şuşalı, Hüsniyyə Mürvətova, Elxan Rza, gənc aktyorlar və Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı heyəti iştirak ediblər.



Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbəsi Nicat Hüseynzadə Mixaylo rolunu məharətlə ifa edib. Tamaşa boyu sənədli kadrlar nümayiş etdirilib.

Tədbiri izləyənlər ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1973-cü ildə Bakı şəhərinin mərkəzində ucaldılmış qəhrəmanın möhtəşəm abidəsi qarşısındakı tarixi nitqini və Azərbaycan Prezidenti İlham Əliyevin Sloveniya Respublikasına rəsmi səfəri zamanı Mehdi Hüseynzadənin memorial muzeyinin açılışında ictimaiyyət qarşısında nitqini və əfsanəvi qəhrəman haqqında söylədiyi fikirləri əks etdirən sujetləri alqışlarla qarşılayıblar.

Sonda xatirə şəkilləri çəkdirilib.

# Mehdi Hüseynzadənin 100 illik yubileyinə həsr olunmuş anım tədbiri keçirilib

*Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən, dekabrın 22-də əfsanəvi partizanın abidəsi önündə anım mərasimi keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə Müdafiə Nazirliyinin bir qrup şəxsi heyəti, Mehdi Hüseynzadənin ailə üzvləri, xüsusi təyinatlı təhsil müəssisələrinin zabit və kursantları, veteranlar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev fəxri qarovulun müşayiəti ilə abidə önünə əklil qoyub. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra tədbir açıq elan edilib.

Tədbirdə çıxış edən Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, ehtiyatda olan polkovnik Abdulla Qurbani qəhrəmanın şərəfli həyat yolu haqqında ətraflı məlumat verib, onun göstərdiyi şücaətdən danışıb.

Mehdi Hüseynzadənin ailə üzvləri adından çıxış edən Mehdi Əzizbəyov göstərilən diqqətə və ehtirama görə ölkə başçısına və ordu rəhbərliyinə, eləcə də tədbir iştirakçılarına dərin minnətdarlığını bildirib.

Sonda Mehdi Hüseynzadənin abidəsi önündə xatirə şəkli çəkdirilib.

# Abşeron rayonunun Mehdiabad qəsəbəsində şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə yeni mənzillər verilib

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Abşeron rayonunun Mehdiabad qəsəbəsində yeni yaşayış binalarından alınmış on mənzil şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə təqdim edilib.*

AZƏRTAC xəbər verir ki, mənzillərdən ikisi birotaqlı, üçü ikiotaqlı, beşi üçotaqlı olub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun şöbə müdiri Vüqar Behbudov mərasimdə çıxış edərək ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və Konstitusiya quruluşunun müdafiəsi uğrunda şəhid olanların ailələrinə Prezident İlham Əliyev tərəfindən göstərilən hərtərəfli diqqət və qayğıdan danışıb. O, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il ərəfəsində mənzil alan ailələri təbrik edib. Bildirib ki, şəhid ailələrinə və müharibə əlillərinə təqdim edilən mənzillərin sayı 6200-dən çoxdur. Təkcə bu il həmin kateqoriyadan olan ailələrə 626 mənzil təqdim edilib.

Sonra mənzillərin püşkatma qaydasında, obyektiv və ədalətli şəkildə paylanması həyata keçirilib.

Yeni mənzil alanlar onların sosial müdafiəsinin gücləndirilməsi, eyni zamanda, mənzil-məişət şəraitinin yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlərə görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

# “Ordun varsa, yurdun var”

## Hərbi liseylərdə intellektual bilik yarışları keçirilib

*Heydər Əliyev adına Hərbi Liseydə Naxçıvan şəhərinin 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtı seçilməsi və 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə əlaqədar kursantlar arasında "Poliqon" strateji intellekt oyunu təşkil edilib.*



AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, 16 komandanın iştirak etdiyi yarışda ən çox xal toplayan "Əlincə" komandası qalib adını qazanıb. Sonrakı iki pillədə "Qartal" və "Uğur" komandaları qərarlaşıblar.

Qalib komandalara mükafatlar təqdim olunub.

Yarış Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Əlahiddə Ümumqoşun Ordunun, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin, "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilib.

* * *

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibəti ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Firudin bəy Köçərli adına Respublika Uşaq Kitabxanası ilə birgə "Açıq dərs - açıq fikir" layihəsi çərçivəsində "Ordun varsa, yurdun var" adlı tədbir keçirildi.



Aparıcı Naibə Şəmşiyeva tədbiri açıq elan etdikdən sonra ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

C.Naxçıvanski adına Hərbi Liseyin rəisi general-mayor Bəkir Orucov çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti ilə bağlı tədbir iştirakçılarına ətraflı məlumat verdi.

- Hörmətli tədbir iştirakçıları, dəyərli qonaqlarımız! Sizin hər birinizi ev sahibliyi etdiyimiz "Ordun varsa, yurdum var" adlı tədbirdə salamlamaqdan məmnunluq duyuram. Hər bir xalqın tarixində elə önəmli hadisələr var ki, həmin hadisə xalqın tarix salnaməsinə əbədi və silinməz izlərlə həkk olunur. Bir əsr bundan öncə tarix səhnəsinə qədəm basan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması da belə əlamətdar hadisələrdən biridir. Bildiyiniz kimi, 1918-ci il mayın 28-də Tiflis şəhərində xalqımızın vətənpərvər və uzaqgörən oğulları Azərbaycanın müstəqilliyini bəyan edərək ölkəmizi bütün dünyaya tanıtdırmağa başladılar. Qısa zaman çərçivəsində demokratik prinsiplərə, milli mənafeyə söykənən bir dövlətin qurulması üçün bütün imkanlar səfərbər edildi. Cəmi 23 ay yaşamasına baxmayaraq, müstəqil ölkənin varlığını sübut edən dövlət bayrağı, dövlət dili, dövlət himni haqqında qanunlar da daxil olmaqla, ümumilikdə 200-dən artıq qanun qəbul edildi. Cümhuriyyətin həyata keçirdiyi böyük tədbirlərdən ən vacibi də dövlətin müdafiəsinin əsasını təşkil edən Silahlı Qüvvələrin yaradılması oldu. 26 iyun 1918-ci ildə Silahlı Qüvvələrin yaradılması haqqında qərarın qəbul edilməsi qısa vaxt ərzində 40 minlik nizami ordunun toplanması ilə nəticələndi. Sevindirici haldır ki, Cümhuriyyət dövründə ordumuza S.Mehmandarov, Ə.Şıxlinski və C.Naxçıvanski kimi hərb tariximizdə pozulmaz imzaların qoymuş cəsur sərkərdələr rəhbərlik edirdi.

Təəssüflər ki, 1920-ci il aprelin 27-də Azərbaycan Xalq Cümhuriyyəti xarici təzyiqlərə və ölkə daxilindəki parçalanmaya davam gətirməyərək süquta uğradı. Başlanılan böyük quruculuq işləri yarımçıq qaldı. XX əsrin sonlarında Sovetlər Birliyi dağıldıqdan sonra xalqımız ikinci dəfə öz müstəqilliyinə qovuşdu. Ümummilli liderimiz Heydər Əliyev xalqın tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra müstəqilliyimiz daha da möhkəmləndi. Ulu Öndər dövlətçiliyimizin möhkəmlənməsi üçün çox böyük uğurlu islahatlar həyata keçirdi.

General çıxışını bu sözlərlə yekunlaşdırdı: "Məhz belə islahatların nəticəsidir ki, bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin başçılığı ilə daha da böyük uğurlar qazanılmaqdadır. Ordu quruculuğu istiqamətində aparılan islahatlar müsbət nəticələr verməkdədir. Azərbaycan Ordusu gündən-günə güclənir və möhkəmlənir. 2016-cı ilin aprel döyüşləri və 2018-ci ildə həyata keçirilmiş Günnüt əməliyyatı ordumuzun artan gücünün və qüdrətinin ən yaxşı göstəricisidir. Əminəm ki, daim inkişafda olan Azərbaycan Ordusu tədbir keçirilən bu zalda əyləşən gələcəyin zabitləri olacaq kursantların iştirakı ilə daha böyük qələbələrə imza atacaq. Ən əsası illərdən bəri işğal altında olan torpaqlarımız qəsbkarlardan azad ediləcəkdir."

Kursantların Azərbaycan Xalq Cümhuriyyətinin 12 güllələnmiş generalının xidmət yolları haqqında teatrlaşdırılmış səhnəcikləri nümayiş etdirməsi böyük maraqla qarşılandı. Tədbir iştirakçıları sanki bir anlıq keçmişə - 100 il əvvələ səyahət etdilər.

Silahlı Qüvvələrin inkişaf mərhələlərini əks etdirən videoçarxın nümayiş olunması tədbir iştirakçılarına xeyli bilik və məlumat verdi.

Sonra tədbirin ən maraqlı və həyəcanla dolu hissəsinə start verildi. "Açıq qapı - açıq fikir" lahiyəsi çərçivəsində kursantlar arasında Silahlı Qüvvələrin 100 illiyinə həsr olunmuş intellektual bilik yarışması keçirildi. Kursantlar səhnədə öz yerlərini tutandan sonra münsiflər heyəti seçildi. Münsiflər heyətində əsasən tarixçilər və təcrübəli zabitlər aldılar. Tarix müəllimi Yengibar Müzəfferov sualları səsləndirir, kursantlar cavab verir, münsiflər heyəti isə onların biliklərini qiymətləndirirdilər. Tədbir iştirakçıları isə bütün bu prosesi diqqətlə izləyirdilər. İzlədikcə onlar da Silahlı Qüvvələrin yaranması haqqında bəzi yeni faktları öyrənir, biliklərini daha da zənginləşdirirdilər. Verdikləri cavablardan hiss olunurdu ki, kursantlar yarışmaya çox ciddi hazırlaşıblar.



Kursantlar onlara ünvanlanmış sualların hamısını əhatəli, geniş cavablandırandan sonra yarış başa çatdı. Münsiflər heyəti qalibləri müəyyənləşdirmək üçün məsləhət-məşvərətə başladılar. Arada yaranmış fasilədə kursant Yaqub Əhmədov dahi bəstəkar Üzeyir Hacıbəylinin görkəmli şair Əhməd Cavadın sözlərinə bəstələdiyi "Çırpınırdı Qara dəniz" mahnısını ifa etdi.

Könülləri tellendirən, qəlbləri riqqətə gətirən mahnı başa çatdıqdan sonra münsiflər heyətinin üzvü, Firudin bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərova qalibləri elan etdi. Məlum oldu ki, hazırlığı daha yüksək olan kursantlardan Əli Quliyev intellektual bilik yarışmasında birinci, Sadiq Məmmədov ikinci, Əli Süleymanov isə üçüncü yeri tutublar.

Yarışın qaliblərinə fəxri fərman və qiymətli hədiyyələri təqdim edən C.Naxçıvanski adına Hərbi Liseyin rəisi general-mayor Bəkir Orucov onlara təhsillərində və şəxsi həyatlarında uğurlar arzuladı.

Tədbirin bədii hissələrində fəallıq göstərən kursantlara da fəxri fərmanlar və qiymətli hədiyyələr verildi. Mükafatları kursantlara general-mayor Vasif Kazımov, general-mayor Gəray Bağırov və Firudin bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərova təqdim etdilər.

General-mayor Vasif Kazımov da çıxış edərək belə tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışdı.

General-mayor Bəkir Orucov təhsil ocağında vətənpərvərlik ruhuna köklənmiş tədbiri keçirməsinə, həmçinin kursantlara böyük diqqət və qayğı göstərdiyinə görə Şəhla Qəmbərovaya və kitabxananın kollektivinə dərin minnətdarlığını bildirdi.

Şəhla Qəmbərova da çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin və Silahlı Qüvvələrin 100 illiyinə həsr olunmuş belə möhtəşəm bir tədbirin keçirilməsinə ev sahibliyi etdiyinə və hərtərəfli şərait yaratdığına görə C.Naxçıvanski adına Hərbi Liseyin rəhbərliyinə minnətdarlığını bildirdi.

"Açıq dərs - açıq qapı" layihəsi çərçivəsində keçirilən tədbir "Azərbaycan Xalq Cümhuriyyəti - 100" mövzusunda şəkil, plakat, rəsm əsərləri və kitablardan ibarət sərginin nümayişi ilə başa çatdı.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# Dünya azərbaycanlılarını birləşdirən möhtəşəm gün

*31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü milli birlik, Azərbaycana məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət, Vətənə bağlılıq hisslərini özündə təcəssüm etdirir.*




Qədim tarixə malik xalqımız milli-mənəvi dəyərlərlə, milli mentalitetlə bağlı olan bu bayramı uzun illərdən bəri yaranmış, sədaqətlə qorunub saxlanılmış, formalaşmış ənənələrinə, mədəniyyətinə, tarixi köklərinə ehtiramla, xoş amallarla, duyğularla keçirir. Bu bayram ürəklərində Vətən eşqi, milli-mənəvi birliyə sədaqəti olanlardan güclü dəstək alır.

31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar "N" hərbi hissəsində tədbir keçirildi.

Tədbirdə Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin, Bakı şəhər Mədəniyyət Baş İdarəsinin əməkdaşları və hərbi hissənin şəxsi heyəti iştirak edirdilər.

Öncə ümummilli liderimiz Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Polkovnik Mehman Kərimov tədbiri açaraq qarşıdan gələn 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə hər kəsi təbrik etdi. Zabit xoş arzularını bildirərək qeyd etdi ki, 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 Dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi bayramı kimi qeyd olunması barədə qərar qəbul edildi. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət ünvanladı. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq, 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə qanun qəbul etdi. Dünya azərbaycanlılarının vahid dövlət ideyası ətrafında birləşməsi hərəkatı məhz həmin qərarla başlandı".

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin əməkdaşı, dövlət qulluqçusu Zümrüd Səmədova çıxışında qeyd etdi ki, 1991-ci ildə qəbul edilmiş bu tarixi qərarın nəticəsi kimi 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı, 2006-cı il martın 16-da II, 2011-ci il iyulun 5-də III, 2016-cı il iyunun 3-də isə IV qurultayı keçirildi. "27 il ərzində dünya azərbaycanlılarının təşkilatlanması istiqamətində Azərbaycan dövlətinin gördüyü işlər son dərəcə uğurlu olub. Hər il dekabrın 31-də azərbaycanlıların yaşadığı bir çox xarici ölkələrdə Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün bayram kimi geniş qeyd edilməsi onu sübut edir ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə tarixləşdirilən birlik və həmrəylik hərəkatı Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunmasına xidmət edən çox mühüm amillərdən birinə çevrilib..."

Zümrüd Səmədova daha sonra vurğuladı ki, ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyev azərbaycançılıq məfkurəsini uğurla davam etdirir...



Dövlətimizin diaspor siyasəti, həmvətənlərimizin birlik və həmrəyliyinin möhkəmləndirilməsi, onların daha mütəşəkkil formada təşkilatlanması prosesi özünün yeni mərhələsinə qədəm qoyub. Artıq dünya azərbaycanlıları yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayır, respublikamızla qarşılıqlı əlaqələrin genişlənməsinə böyük töhfə verir.

Polkovnik-leytenant Rəşid Tinayev, dövlət qulluqçusu Sairə Rəsulova, Bakı şəhər Mədəniyyət Baş İdarəsinin əməkdaşı Nərminə Qafarlı, Şahin Cavadsoy və başqaları çıxışlarında qeyd etdilər ki, bunlar Ulu Öndərin şah əsəri olan müasir Azərbaycanın daha da güclənməsi baxımından vacib amillərdəndir. Hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir soydaşımız doğma Azərbaycan üçün dəyərli olduğunu hiss edir, bu isə onu Vətən naminə çalışmağa daha da ruhlandırır.

Tədbirin bədii hissəsində müğənni Aynur Dadaşovanın və Eldəniz İsrafilovun ifa etdiyi mahnılar əsgərlərimizə könül xoşluğu yaşatdı.

**Baş leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

# Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin 100 illik yubileyi ilə bağlı hərbi hissədə tədbir keçirildi

*Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin anadan olmasının 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 iyun tarixli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilir. "N" hərbi hissəsində keçirilən yubiley tədbiri də bu qəbildəndir.*



Tədbirdə Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin, "İnnovativ Təşəbbüslər" İctimai Birliyinin nümayəndələri, Buzovna qəsəbəsi 26 saylı tam orta məktəbin müəllim kollektivi və hərbi hissənin şəxsi heyəti iştirak edirdilər.

Öncə ümummilli liderimiz Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Polkovnik Mehman Kərimov İkinci Dünya müharibəsinin bəşəriyyətə vurduğu yaraların yaddaşlardan silinməməsindən, illər keçsə də, bu ölüm-dirim müharibəsinin unudulmayacağından söz açdı. Bildirdi ki, tarixdə xüsusi iz qoymuş İkinci Dünya müharibəsi illərində Azərbaycan övladları istər ön xətdə, istərsə də arxa cəbhədə böyük fədakarlıqlar göstəriblər. Belə igid, qorxubilməz Vətən övladlarından biri də Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadədir. Yüksək əxlaqi keyfiyyətlərə malik cəsur kəşfiyyatçının rəşadət dolu şərəfli həyat yolu bu gün Vətənimizin sərhədlərini layiqincə qoruyan və işğal altındakı torpaqlarımızı azad etməyə hər an hazır olan mətin Azərbaycan əsgəri üçün parlaq qəhrəmanlıq nümunəsidir.

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin əməkdaşı, dövlət qulluqçusu Zümrüd Səmədova çıxışında Sovet İttifaqı Qəhrəmanının ömür yoluna nəzər saldı. Qeyd etdi ki, Mehdi Hüseynzadə apardığı çoxsaylı uğurlu kəşfiyyat əməliyyatları və nümayiş etdirdiyi misilsiz hərbi şücaətləri ilə böyük şöhrət qazanıb və Azərbaycan xalqının zəngin tarixi hünər salnaməsinə şanlı səhifələr yazıb.

"Mehdi Hüseynzadəyə layiq olduğu Sovet İttifaqı Qəhrəmanı fəxri adı ölümündən 13 il sonra verildi. 1957-ci ilin aprelində SSRİ Ali Sovetinin Rəyasət Heyətinin Fərmanı ilə Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı verilib.

Mehdi Hüseynzadənin qəhrəmanlıq salnaməsinin ictimailəşdirilməsində əvəzsiz xidmətləri olan ulu öndər Heydər Əliyevin uzun illər ağır zəhməti hesabına toplanılan materiallar əsasında tanınmış yazıçılar İmran Qasımov və Həsən Seyidbəyli "Uzaq sahillərdə" povestini yazıblar. Həmin əsər əsasında bu gün də maraqla izlənilən məşhur "Uzaq sahillərdə" bədii filmi çəkilib". Zümrüd Səmədova daha sonra vurğuladı ki, ulu öndər Heydər Əliyev Azərbaycana birinci dəfə rəhbərlik etdiyi illərdə Mehdi Hüseynzadənin xatirəsinin əbədiləşdirilməsi istiqamətində əməli işlər görüb, onun şərəfli xidmətlərinin İttifaq miqyasında tanınmasına nail olub və Bakıda möhtəşəm abidəsinin ucaldılmasına göstəriş verib. 1973-cü il mayın 9-da - Qələbə Günündə Mehdi Hüseynzadənin abidəsinin təntənəli açılışı olub. Tədbirdə iştirak edən dahi rəhbər Heydər Əliyev qəhrəmanın partizan hərəkatındakı fəaliyyətindən, keçdiyi mübariz döyüş yolundan söz açaraq deyib: "Mehdi Hüseynzadənin adı müasirlərimizin və gələcək nəsillərin hafizəsindən heç vaxt silinməyəcək".

Dövlət qulluqçusu əsgərlərimizi "Mixaylo" kimi igid oğullardan nümunə götürməyə və xalqımızın qəhrəmanlıq ənənələrindən bəhrələnməyə çağırdı. O, əmin olduğunu bildirdi ki, Həzilər, Mehdilər, Gəraylar, Qafurlar yetirən Vətən torpağı heç vaxt əzəli və əbədi torpaqlarımızın işğalı ilə barışa bilməz və barışmayacaq. Azərbaycanın üçrəngli bayrağı Lələtəpədə, Qızılqayada, Günnütdə dalğalandığı kimi, Xankəndidə, Şuşada, Laçında və işğal altında olan digər əzəli torpaqlarımızda da dalğalanacaq.

Polkovnik-leytenant Əhməd Abdullayev, dövlət qulluqçusu Sairə Rəsulova, "İnnovativ Təşəbbüslər" İctimai Birliyinin sədri Əşrəf Əhmədov, Yaqut Məmmədova, müəllimlərdən Aynur Abdullayeva və Vüqar Məcidov çıxışlarında Mehdi Hüseynzadənin qəhrəmanlığından, dövlətimizin qəhrəmanın xatirəsinə ehtiramından, "Mixaylo"nun qəhrəmanlığını Mübarizin, Çingizin, Samidin, Muradın və saymaqla bitməyən igid oğullarımızın davam etdirməsindən söz açdılar.

Sovet İttifaqı Qəhrəmanının anadan olması ilə əlaqədar qonaqlar əsgərlərlə birlikdə 100 ağac əkdilər. Aksiyada müxtəlif növdə ağac əkildi, abadlıq işləri aparılaraq ağacların dibi yumşaldıldı, yaşıllıqlara aqrotexniki qulluq göstərildi.

Sonda ictimaiyyət nümayəndələri əsgərlərin sosial-məişət şəraiti ilə yaxından tanış olaraq, əsgər süfrəsinə qonaq oldular.

**Baş leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Hərbi biliyə dərindən yiyələnmək, döyüş texnikasını və silahları öyrənmək hər bir döyüşçünün borcudur.

**Suallar:**

**1. Hərbi biliklərə dərindən yiyələnmək, döyüş texnikası və silahlardan bacarıqla istifadə etmək döyüşdə qələbəni təmin edir.**

**2. Hərb işini vicdanla öyrənmək Azərbaycan Ordusunun hərbi qulluqçularının borcudur.**

*Hərbi biliklərə dərindən yiyələnmək, döyüş texnikası və silahlardan bacarıqla istifadə etmək döyüşdə qələbəni təmin edir*

Azərbaycan Ordusunun hər bir hərbi qulluqçusu yaddan çıxarmamalıdır ki, bu gün Azərbaycanın ərazi bütövlüyü bərpa olunmayıb, torpaqlarımızın 20 faizi işğal altındadır. Müharibə vəziyyətinin davam etdiyini nəzərə alan Azərbaycan dövləti tamamilə haqlı olaraq öz ordusunun gücünü, hərbi kadrların peşəkarlıq səviyyəsini durmadan artırır, hərbi qüdrətini yüksəldir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulayıb ki, ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün, hər bir vətəndaş üçün bir nömrəli vəzifədir. "Silahlı Qüvvələr haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində göstərilir ki, ordu quruculuğunun əsas prinsiplərindən biri yüksək döyüş hazırlığıdır. Hərbi qanunvericiliyə uyğun olaraq, hərbi qulluqçular Azərbaycan Respublikasının mənafeyini, suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini qorumağa, Hərbi and içməyə, Azərbaycan qanunlarına əməl etməyə, komandir və rəislərin əmrlərini qeyri-şərtsiz yerinə yetirməyə borcludurlar.

Müasir döyüş - qoşunların taktiki fəaliyyətinin əsas forması, bölmələrin müəyyən ərazidə qısa müddət ərzində düşməni məğlub (darmadağın) etmək və digər taktiki tapşırıqları yerinə yetirməsi məqsədilə hədəfə və vaxta görə əlaqələndirilmiş zərbə və manevrdən ibarət müxtəlif hərbi birləşmələrin, hərbi texnika və silahların tətbiq olunduğu mütəşəkkil bir hərbi əməliyyatdır. Döyüş qələbə çalmağın yeganə vasitəsidir. Qələbə düşmənin döyüşdə darmadağın edilməsi və bütün silah növlərinin güclü və dəqiq zərbələri, onların nəticələrindən vaxtında istifadə, birləşmə, hissə və bölmələrin fəal və qətiyyətli hərəkəti ilə əldə edilir. Müasir döyüş öz xarakterinə görə ümumqoşun döyüşüdür. Bu döyüşdə əsgərin rolu qat-qat artır. O öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır. Ümumqoşun döyüşü tanklardan, piyadaların döyüş maşınlarından (zirehli transportyorlardan), artilleriyadan, hava hücumundan müdafiə vasitələrindən, təyyarələrdən, vertolyotlardan, digər döyüş texnikasından və silahlardan istifadə etməklə döyüşdə iştirak edən bütün qoşunların birgə fəaliyyəti ilə aparılır. Əməliyyatların qətiyyətliliyinin təmin olunmasında şəxsi heyətin yüksək mənəvi-döyüş keyfiyyətləri, onun qələbəyə sarsılmaz inamı, silahları və döyüş texnikasını mükəmməl bilməsi və bacarıqla tətbiq etməsi böyük rol oynayır.

1992-1994-cü illərdə Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə, döyüşçülərimizin texnika və silahlardan bacarıqla istifadə edərək düşmənin zirehli texnikasına, müdafiə qurğularına, canlı qüvvəsinə vurduqları ciddi zərbələrin döyüş müvəffəqiyyətinə təsiri barədə nümunələr çoxdur. Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki, 1992-1993-cü illərdə Azərbaycan Ordusu hissələrinin apardıqları bir sıra döyüş əməliyyatlarının müvəffəqiyyətsizliyə uğramasının əsas səbəblərindən biri də bəzən döyüşçülərin onlara həvalə olunmuş silah və texnikaların döyüş imkanlarını pis bilmələri və ona görə də həmin imkanlardan döyüşdə tam istifadə edə bilməmələri idi. Buna səbəb isə döyüşlər apara-apara formalaşan Azərbaycan Ordusunda şəxsi heyəti hazırlamaq üçün kifayət qədər kadrların və lazımi tədris bazasının olmaması, vaxt məhdudluğu idi. 1993-cü ildən etibarən Azərbaycanın dövlət rəhbərliyinin ölkənin müdafiə qabiliyyətini yüksəltmək, ordunun döyüş hazırlığını artırmaq üçün apardığı ardıcıl və məqsədyönlü iş bu gün öz bəhrəsini verir. Bu gün orduda xidmət edən əsgərlərimiz belə bir tarixə söykənir. Azərbaycan əsgərinin üzərinə ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün hər an döyüşə hazır olmaq kimi şərəfli və məsuliyyətli bir vəzifə düşür. Bu vəzifənin müvəffəqiyyətlə yerinə yetirilməsi isə əsgərlərimizdən yüksək döyüş və mənəvi-psixoloji hazırlıqlı olmağı tələb edir. Əsgərin öz xalqının və ölkəsinin tarixini bilməsi, bu gün üzərinə düşən vəzifə məsuliyyətini dərk etməsi onun mənəvi-psixoloji hazırlığında xüsusi əhəmiyyət kəsb edir. Son illərdə ölkəmizin iqtisadi qüdrətinin artması sosial məsələlərin həllinə və milli ordumuzun möhkəmlənməsinə geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Azərbaycan Ordusu hazırda dövlət rəhbərliyinin böyük qayğısı sayəsində özünün yüksək inkişaf mərhələsini yaşayır. Biz bu gün müasir hərbi texnika ilə təchiz edilməsinə, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordu yaradılmasına nail olmuşuq.

*Hərb işini vicdanla öyrənmək Azərbaycan Ordusunun hərbi qulluqçularının borcudur*

Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsində göstərilir ki, Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Azərbaycan Ordusunun sıralarına daxil olan hər bir Azərbaycan vətəndaşı öz Vətəni və xalqı qarşısında təntənəli surətdə Hərbi and içir. Hərbi and hər bir hərbi qulluqçudan;

- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüşçüsünün vəzifə borcunu dərindən dərk etməsini, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına ciddi əməl etməsini, Hərbi andın tələblərini yerinə yetirməsini, sayıq olmasını, Azərbaycanın mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü, müstəqilliyini şərəflə və inamla qorumasını, bu işdə öz qüvvəsini, lazım gələrsə, həyatını da əsirgəməməsini;
- hərbi işi vicdanla öyrənməsini, komandirlərin (rəislərin) ona öyrətdiklərini möhkəm və səylə yadda saxlamasını, öz vəzifələrini nümunəvi yerinə yetirməsini, hərbi nizamnamələrin tələblərini möhkəm bilməsini və vicdanla yerinə yetirməsini;
- əmr və göstərişləri sözsüz, tez və vaxtında yerinə yetirməsini, igid və intizamlı olmasını, nalayiq hərəkətlər etməməsini və yoldaşlarını da belə hərəkətlərdən çəkindirməsini;
- dövlət sirrini qorumasını, böyüklərə hörmət etməsini, hərbi nəzakət, davranış qaydalarına ciddi əməl etməsini;
- silahını, döyüş texnikasını və digər texnikanı yaxşı bilməsini;
- əcdadların hərbi ənənələrini şərəflə davam və inkişaf etdirməyi, hər an əldə silah Vətənin müdafiəsinə qalxmağa hazır olmağı tələb edir.

Ümummilli liderimiz Heydər Əliyevin 2002-ci ilin iyun ayında Naxçıvan qarnizonunun şəxsi heyəti ilə görüşərkən dediyi "Orduda hər bir əsgər, hər bir zabit, hər bir general bilməlidir ki, o özünü hərbi peşəyə həsr edir. Hərbi peşə isə Vətəni, torpağı qorumaqdır. Vətəni, torpağı qorumaq üçün isə gərək gücün olsun və əgər kimsə sənin torpağına, Vətəninə qəsd edirsə, ona layiqli cavab verə, layiqli zərbələr endirə biləsən" sözləri bu gün də Azərbaycan Ordusunun hər bir hərbi qulluqçusu üçün ən dəyərli tövsiyədir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsində hərbi qulluqçuların əsas vəzifələrindən biri kimi müəyyən edilir ki, hərbi qulluqçu hərbi nizamnamələrin tələblərini və öz vəzifələrini yaxşı bilməli, onları vicdanla yerinə yetirməli, hərbi biliklərini müntəzəm surətdə təkmilləşdirməli, ona tapşırılmış silahları, döyüş texnikası və digər texnikanı mükəmməl öyrənməlidir.

Daxili Xidmət Nizamnaməsi tələb edir ki, əsgər (matros) hərbi işi vicdanla öyrənsin, komandirlərin (rəislərin) ona öyrətdiklərini möhkəm və səylə yadda saxlasın, silahını, döyüş texnikası və digər texnikanı yaxşı bilsin. Bu gün Azərbaycan Ordusunda olan döyüş texnikası və digər texnika, silah-sursatlar ordunun döyüş qabiliyyətini yüksək səviyyədə saxlamağa imkan verir. Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycanda ordu quruculuğu prosesini öz diqqət mərkəzində saxlayacağını bəyan edərək demişdir: "Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır".

Azərbaycan Respublikası Prezidentinin və Müdafiə nazirinin 2019-cu tədris ili üçün Azərbaycan Ordusu qarşısında qoyduqları əsas vəzifələrdən biri də birləşmələrin, hissələrin və bölmələrin döyüş qabiliyyətini yüksəltmək, döyüş tapşırıqlarını yerinə yetirməyə həmişə hazır olmaqdır. Bunun üçün isə hissələrdə intensiv döyüş hazırlığı prosesi təşkil olunmalıdır. Şəxsi heyət zabitlərin, gizirlərin və çavuşların rəhbərliyi altında döyüş və ictimai-siyasi hazırlıq məşğələlərində hərb işinin sirlərinə yiyələnməli, döyüş texnikasından və silahlardan bacarıqla istifadə etmək üçün öz biliklərini, bacarıqlarını və vərdişlərini daha da təkmilləşdirməli, mənəvi-psixoloji hazırlıqlarını artırmalıdır. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü torpaqlarımızın azadlığı uğrunda gələcək döyüşlərə hazırlayır.

Ümummilli lider Heydər Əliyev demişdir: "Mən ümidvaram ki, biz ordumuzu gücləndirəcək, döyüş qabiliyyətini yüksəldəcək, müvafiq silahlardan istifadə olunmasının keyfiyyətini artıraraq, dövlətimizi qoruyacaq və ən əsası, işğal olunmuş torpaqlarımızın azad edilməsi gününü yaxınlaşdıracağıq və Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini mütləq təmin edəcəyik".

**Qeyd:** *Hər bir hərbi hissənin öz təyinatına görə döyüş tapşırıqları var. Bu tapşırıqları yerinə yetirmək üçün hissə və bölmələr kifayət qədər texnika və silahlara, sursata malikdirlər. İctimai-siyasi hazırlıq dərsində öyrənilən bu mövzu hərbi qulluqçuların onlara həvalə olunmuş döyüş texnikasından, digər texnikadan və silahlardan bacarıqla istifadə etmələri üçün öz biliklərini, bacarıqlarını və vərdişlərini daha da artırmağa, Azərbaycan xalqı və dövləti qarşısında Vətənin müdafiəsi, ərazi bütövlüyünün bərpası və müstəqilliyimizin təmin olunmasında məsuliyyətlərini şüurlu surətdə dərk etməsi üçün planlaşdırılır və keçirilir.*

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu birgə tədbirlər planı imzalayıb

2019-cu ildə Azərbaycan Ordusunda hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsi, cinayət hadisələrinin qarşısının alınması məqsədilə Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu arasında birgə tədbirlər planı imzalanıb.

Plana əsasən keçirilməsi nəzərdə tutulan tədbirlərin icra vaxtı, keçirilmə yeri və məsul şəxslər müəyyən edilib.

İl ərzində birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində müxtəlif kateqoriyalardan olan hərbi qulluqçularla nəzərdə tutulan görüşlərdə şəxsi heyətin hüquqi biliklərinin artırılması, nizam-intizamın və hüquq qaydalarının möhkəmləndirilməsi, mövcud problemlərin aradan qaldırılması istiqamətində müəyyən olunmuş tədbirlər və digər fəaliyyətlər həyata keçiriləcək.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***25 dekabr 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 29 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan, Voskepar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Baş Qərvənd, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Hərbi hissədə görüş keçirilib

*Müdafiə nazirinin təsdiq etdiyi illik fəaliyyət planına əsasən, "N" hərbi hissəsinin qərargahında Azərbaycan Vətən Müharibəsi İctimai Birliyi və Azərbaycan Dövlətçiliyinə Milli Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə müharibə veteranları, şəhid ailələri və ictimaiyyət nümayəndələrinin hərbi qulluqçularla görüşü keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdən əvvəl xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub.

Mərasim ulu öndər Heydər Əliyev və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, Dövlət himninin ifası ilə başlayıb.

Tədbirdə çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ordumuza göstərdiyi diqqət və qayğıdan, bu istiqamətdə dinamik inkişafdan və həyata keçirilən islahatlardan danışıblar. Qonaqlara hərbi vətənpərvərlik mövzusunda videoçarxlar nümayiş etdirilib.



Tədbir əsgərlərlə birgə nahar edilməsi və xatirə şəklinin çəkdirilməsi ilə başa çatıb.

# Kolumbiya parlamenti Azərbaycanın işğal olunmuş torpaqlarının qeyd-şərtsiz boşaldılmasını tələb edir

*Kolumbiya parlamentinin xarici işlər, təhlükəsizlik və milli müdafiə üzrə İkinci Komitəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən qətnamə qəbul edib. Qətnamə Azərbaycan Respublikasının Boqotadakı səfirliyinin müvəqqəti işlər vəkili Həmid Zeynalova rəsmi olaraq təqdim edilib.*

AZƏRTAC xəbər verir ki, qətnamədə Kolumbiya ilə Azərbaycan arasındakı ikitərəfli münasibətlərin vacibliyi vurğulanır. Kolumbiya tərəfi Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Azərbaycanın Dağlıq Qarabağ və ətraf yeddi rayonunun işğalından, habelə Azərbaycan əhalisinin etnik təmizləməyə məruz qalmasından narahatlığını qeyd edir. Qətnamədə Ermənistanın bu təcavüzkarlıq siyasəti pislənir və dünya ictimaiyyəti bu hadisələri insanlığa qarşı cinayət kimi qiymətləndirməyə çağırılır.

Həmçinin Azərbaycan torpaqlarının indiyədək işğal altında qaldığına və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həllini tapmadığına görə Kolumbiya tərəfinin dərin təəssüfü vurğulanır. Kolumbiya münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri, qəbul olunmuş beynəlxalq hüquqi sənədlər, o cümlədən BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında sülh yolu ilə həll edilməsinə çağırır.

Eyni zamanda, qətnamədə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən qeyd-şərtsiz çıxarılması və məcburi köçkünlərinin öz doğma torpaqlarına dərhal qayıtması üçün şəraitin yaradılması tələb edilir.

Sonda Kolumbiya parlamentinin xarici işlər, təhlükəsizlik və milli müdafiə üzrə İkinci Komitəsi Azərbaycan Hökuməti və xalqı tərəfindən ölkəsinin müdafiəsi üçün həyata keçirdiyi bütün səyləri tam dəstəkləyir və fürsətdən istifadə edərək Azərbaycan Respublikasının Kolumbiyadakı səfirliyinin yüksək fəaliyyətini xüsusi vurğulayır.

# İctimai birliyin nümayəndələri hərbçilərin qonağı olublar



Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində bir qrup ictimaiyyət nümayəndələri hərbçilərin qonağı olub.

"İrəli" İctimai Birliyinin sədri Mirhəsən Seyidov və rəhbərlik etdiyi kollektiv əsgərlərlə görüşüb, onlara bayram hədiyyələri təqdim ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qonaqlar əvvəlcə cəbhə bölgəsində yerləşən hərbi hissənin şəxsi heyətinin xidmət və sosial məişət şəraiti ilə tanış olublar.

Görüşdə həmrəylik gününün yaranma tarixindən, əhəmiyyətindən, respublikamızın davamlı inkişafının təməlini qoyan ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətlərindən və Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində bütün sahələrdə, eləcə də ordu quruculuğunda qazandığımız uğurlardan danışılıb.

Şəxsi heyət üçün maraqlı konsert proqramı təqdim olunub və qonaqların əsgərlərlə birlikdə bayram naharı təşkil edilib.

İctimai birlik tərəfindən döyüş hazırlığında və nizam-intizamda fərqlənən bir qrup hərbi qulluqçuya fəxri fərman və qiymətli hədiyyələr təqdim olunub.

Sonda xatirə şəkli çəkdirilib.

# DANA özüyeriyən artilleriya qurğularından praktiki atışlar keçirilib

*Müdafiə nazirinin təsdiq etdiyi döyüş hazırlığı planına uyğun olaraq artilleriya bölmələri DANA özüyeriyən artilleriya qurğularının tətbiqi ilə praktiki atışlar keçirib. Atışlar döyüş şəraitinə maksimal yaxın vəziyyətdə icra olunub.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, avtomatik idarəetmə sistemi ilə təchiz edilmiş 152 mm-lik artilleriya vasitələrindən şərti düşmənin canlı qüvvə və atəş vasitələri, uzunmüddətli müdafiə qurğuları, idarəetmə məntəqələri, artilleriya və minaatan batareyaları məhv edilib.

Komandanlıq təlimlərə cəlb olunan şəxsi heyətin döyüş hazırlığını yüksək qiymətləndirib.



# Xəbərlər: hadisələr, faktlar

## ABŞ Dövlət Departamenti Türkiyəyə "Patriot" raket sistemlərinin satışını dəstəkləyib



ABŞ Dövlət Departamenti Türkiyəyə 3,5 milyard dollar dəyərində "Patriot" raket sistemlərinin satışını dəstəkləyib.

ABŞ Müdafiə Nazirliyinin müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq üzrə agentliyinin məlumatına əsasən, Türkiyəyə 80 "Patriot" raketi və 60 digər raket, həmçinin müvafiq avadanlıq və radar sistemlərinin satılmasına razılıq verilib.

Ağ ev administrasiyası bu qərarı barədə Konqresi rəsmən məlumatlandırıb. ABŞ-ın qanunvericilik orqanı indi 30 gün müddətində həmin hərbi sazişə dair öz qərarını qəbul etməlidir.

Türkiyə "Patriot" sistemlərinin satışına dair təklifdən iki dəfə - Çin komplekslərinin və S-400 sistemlərinin xeyrinə imtina etmişdi. Vaşinqton isə öz növbəsində Türkiyəni Rusiyadan S-400 raket-zenit kompleksləri almaqdan çəkindirməyə çalışmış, əks-təqdirdə ona F-35 qırıcı təyyarələri satmayacağı ilə hədələmişdi. Noyabrın sonlarında Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ölkəsinin S-400 komplekslərindən imtina etməyəcəyini bir daha bildirmiş, bununla da məsələyə nöqtə qoyulmuşdu.

## Türkiyədə axtarışda olan təhlükəli terrorçu təslim olub



Türkiyənin Daxili İşlər Nazirliyi tərəfindən axtarışda olan təhlükəli terrorçu Adnan Sav Silopidəki Habur gömrük-keçid məntəqəsinə gələrək təhlükəsizlik qüvvələrinə təslim olub.

Diyarbəkirin Lice rayonunda PKK-KCK terror təşkilatları sırasına daxil olaraq Suriyadakı silahlı münaqişələrə qatılan Adnan Savın tapılmasına 300 min Türkiyə lirəsi mükafat ayrılmışdı.

## Ermənistan ordusunun hərbçiləri minaya düşüblər



Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirilən Ermənistan ordusunun dörd hərbi qulluqçusu minaya düşərək müxtəlif dərəcəli ağır bədən xəsarətləri alıb.

Bu barədə Ermənistan mətbuatında və sosial şəbəkələrdə məlumatlar yayılıb.

Yaralanan hərbi qulluqçuların yaxınlarının verdikləri məlumatlardan məlum olur ki, düşmən ordusunun hərbi qulluqçuları mayor Avetik Balayan, Hraçik Koçaryan, baş çavuş Gevorq Hovanesyan və adı açıqlanmayan daha bir əsgər minaya düşdükləri üçün hərbi hospitala yerləşdirilib.

Qohumları yaralıların vəziyyətlərinin ağır olduğunu deyiblər. A.Balayanın və H.Koçaryanın ayaqlarının dizdən aşağı amputasiya edildiyi bildirilib. Baş verən hadisələrə bağlı araşdırma aparılır.

## Yaponiya Cənubi Koreyaya təkrar etirazını bildirib



Yaponiya Müdafiə Nazirliyi hərbi gəminin radar sisteminin patrul təyyarəsinə yönəldilməsinə görə Cənubi Koreyaya təkrar etirazını bildirib.

Dekabrın 20-də baş vermiş hadisədə Cənubi Koreyaya məxsus esmines və Yaponiya özünümüdafiə qüvvələrinin P-1 patrul təyyarəsi iştirak edib. Hadisə Yapon dənizində, İşikava prefekturasındakı Noto yarımadasının yaxınlığında baş verib. Ertəsi gün Yaponiya hadisə ilə əlaqədar Cənubi Koreyaya etirazını bildirib. Cənubi Koreya bu etirazı qəbul etməyərək, bəyan edib ki, esmines radardan Şimali Koreyanın yaxınlıqda üzən gəmisini tapmaq üçün istifadə edib.

Buna cavab olaraq Yaponiya Müdafiə Nazirliyi bildirib ki, atəşin idarə olunması üzrə radar sistemi hədəf və onun yerləşdiyi yer barədə dəqiq informasiyanı hücum məqsədilə əldə edir.

Nazirlikdən bildiriblər ki, belə radar geniş ərazidə axtarış aparmaq üçün istifadə oluna bilməz.

**AZƏRTAC-ın materialları əsasında**

# MOİK idmançılarının növbəti uğuru




*Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunun pəhləvanları güləş üzrə Azərbaycan çempionatında uğurlu çıxış ediblər. Bakı İdman Sarayında keçirilən böyüklər arasında sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan çempionatı dekabrın 18-də start götürüb. Dünya Güləş Birliyinin (UWW) qaydalarına uyğun təşkil olunan yarışlarda MOİK idmançıları ümumilikdə 14 medal qazanıblar.*



Çempionatın ilk günündə yunan-Roma güləşçiləri mübarizəyə qoşulublar. Güləşin bu növü üzrə ümumilikdə 10 çəki dərəcəsində, 206 pəhləvan qüvvəsini sınayıb. Gərgin mübarizə əzmində keçən görüşlərdə MOİK idmançılarından Rafiq Hüseynov 87 kq, Murad Bazarov isə 60 kq çəki dərəcəsində rəqiblərinə qalib gələrək qızıl medal qazanıblar. Həmçinin Murad Məmmədov (63 kq) yalnız finalda uduzmaqla gümüş, Cavid Kazımov (77 kq) ilə Orxan Nuriyev (97 kq) bürünc medal qazanıblar. Rövşən İmranov (55 kq) isə bürünc uğrunda görüşdə məğlub olmaqla, yarışı 5-ci pillədə tamamlayıb.

Yarışın növbəti günündə idmançılar sərbəst güləş üzrə 9 fərqli çəki dərəcəsində mübarizə apardılar. Ordu klubunun yetirmələri güləşin bu növü üzrə də müvəffəqiyyət qazanıblar. Ümumilikdə 205 idmançının qüvvəsini sınadığı yarışlarda MOİK pəhləvanları 1 qızıl və 8 bürünc olmaqla, ümumilikdə 9 medal əldə ediblər. Bir çox ölkədaxili və beynəlxalq turnirlərdə uğurlu çıxış edən, ikiqat dünya çempionu Ağahüseyn Mustafayev bu turnirdə də etimadları doğruldub. O, 70 kq çəki dərəcəsində mübarizə aparan bütün rəqiblərini məğlub edərək qızıl medal qazanıb və fəxri kürsünün 1-ci pilləsinə qalxıb. Digər MOİK idmançıları Əfqan Xaşalov (57 kq), Elmar Kazımov (65 kq), Əşrəf Aşurov, Pənah İlyaslı (70 kq), Nəsib İsayev, Coşqun Əzimov (74 kq), Orxan Abbasov (79 kq) və Teymuraz İsmayılov (125 kq) bürünc medal əldə ediblər.

Hərbçi idmançılarımız bu çempionatda da uğurlu çıxışları ilə yadda qaldılar. Hər iki güləş növü üzrə döşək üzərinə çıxan pəhləvanlarımız əzmkarlıq, mübarizlik, dözümlülük nümayiş etdirdilər. Turnirdən qızıl medalla qayıdan zabitlərimiz Rafiq Hüseynov və Ağahüseyn Mustafayevin qələbə sevincini bölüşmək və düşüncələrini qələmə almaq üçün onlarla həmsöhbət oluruq. Onların əzələli bədənləri, enli kürəkləri, qartal baxışları, şux duruşları istənilən rəqibi vəlvələyə salacaq cəngavər görkəmi bağışlayır. Geydikləri hərbi mundirləri şux qamətlərini daha da cəlbedici edirdi.

İki dəfə Qızıl Qran-Pri qalibi, dəfələrlə Azərbaycan çempionu, Avropa çempionu, 2017-ci il İslam Həmrəyliyi Oyunlarının qalibi leytenant R.Hüseynovun ata yolunun davamçısı olduğunu öyrənirəm.

"Çətin yarış oldu, rəqiblərimin hər biri peşəkar idmançıdır. Qalib gəldiyim üçün çox sevincliyəm. İdmanla ilk tanışlığım atamın sayəsində olub. İdman karyeramda atamı, Respublikanın əməkdar məşqçisi Radik Hüseynovu idealım seçmişəm. Elə ilk məşqçim də o olub. Bu gün qazandığım bütün qələbələrdə onun zəhmətinin bəhrəsi var. Məşqlərə ilk başladığım gündən atama söz verdim ki, əzmkar, çalışqan olacaq, məqsədimə çatmaq üçün heç bir əziyyətdən çəkinməyəcəyəm. İdmana yeni başlayan hər kəs kimi mənim də çətin günlərim olub. Lakin heç vaxt həvəsdən düşməmişəm, əksinə, daha inamla məşqlərimi davam etdirmişəm. Bu günə kimi qazandığım bütün nailiyyətlər arasında ən yaddaqalanı 2015-ci ildə keçirilən hərbçilərarası Olimpiya çempionatında qalib olmağım olub. Həmin turnirdə Mərkəzi Ordu İdman Klubunun adından çıxış edirdim. Yarışın sonunda bizi təbrik edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov mənə qələbəm münasibətilə leytenant hərbi rütbəsi təqdim etdi. Bu mükafatın yaşatdığı sevinc, qürur digər bütün qələbə sevinclərini qabaqladı, yaddaşımda silinməz iz buraxdı."

Rafiq şərəfli peşə sahibi olduğu üçün daim qürur duyduğunu vurğulayaraq ürəyində coşan bir arzusunu da dilə gətirdi:

- Digər idmançılardan fərqli olaraq bizim həm məsuliyyətimiz, həm də qürurumuz ikiqatdır. Çünki biz həm də hərbçiyik, müqəddəs peşə sahibiyik. İşğal altında olan torpaqlarımızın azad olunması üçün döyüşlərə atılmağa hər an hazırıq. Ən böyük arzum idman arenalarında ucaltdığım üçrəngli bayrağımızı tezliklə Qarabağda, zəfər bayramında dalğalandırmaqdır.

Rafiqin bu arzusunun tez zamanda reallaşacağı hər kəsə bəllidir. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin uğurlu siyasəti, ordumuzun gücü və qüdrəti əminliklə deməyə əsas verir ki, ərazi bütövlüyümüz nəyin bahasına olursa-olsun, təmin ediləcək.




Daha bir qızıl medal mükafatçısı olan, istər ölkədaxili, istərsə də beynəlxalq turnirlərdə dəfələrlə üçrəngli bayrağımızı ucaldan və dalğalandıran idmançımız leytenant Ağahüseyn Mustafayev Azərbaycan Ordusunun zabiti olduğu üçün fəxr etdiyini vurğuladı. Qeyd edim ki, Ağahüseyn hərbçilər arasında keçirilən Dünya çempionatının 2 dəfə qızıl, 2 dəfə gümüş, 2 dəfə bürünc medalını qazanıb. Həmçinin hərbçilərarası Avropa çempionatının və Olimpiyadanın qalibi də olub. "Ürəyi Vətən sevgisi ilə döyünən bir gənc üçün sevindirici haldır ki, həm şanlı ordumuzun sıralarında xidmət edir, həm də ölkənin idman şərəfini daha da ucaltmaq üçün mübarizə aparır. Xoşbəxtəm ki, bu vəzifələrimin öhdəsindən layiqincə gəlirəm. Heç zaman unutmuram ki, əsas vəzifəmiz işğal altında olan torpaqlarımızın azad olunmasıdır. Hərbçilər arasında iki dəfə dünya çempionu, bir sıra beynəlxalq turnirlərdə qalib olmuşam, lakin bir zabit kimi əsas məqsədim düşmən üzərində qələbə qazanmaq, üçrəngli bayrağımızı Şuşaya, Laçına, Kəlbəcərə... sancmaqdır", - deyə zabit bildirdi.

Leytenant A.Mustafayevin dedikləri bir daha sübut edir ki, hansı fəaliyyətlə məşğul olmasından asılı olmayaraq bütün gənclərimizin ürəyində Qarabağ həsrəti alovlanır. Bu həsrətə Ağahüseynin, Rafiqin timsalında vətənpərvər, cəsur, mərd, igid oğullarımız son qoyacaq.

Yarışların gedişindən söz açan Ağahüseyn ölkə çempionatının bu dəfə də gərgin idman mübarizəsi şəraitində keçdiyini bildirdi: "Rəqabətin səviyyəsi yüksək olduğu üçün yarışlara ciddi hazırlaşmışdım. Final qarşılaşmasının gərgin keçəcəyini bilirdim. Qalib olmaq üçün əzmkarlıq göstərməli, mübarizəni sona qədər aparmalısan. Rəqibim güclü idmançı idi. Görüşün əvvəlində bir neçə xal qabağa da keçmişdi. Lakin uduzmağı heç düşünmürdüm, son saniyəyə kimi var qüvvəmlə və inamla mübarizə apardım. İdmançı son ana qədər mübarizə aparmalı, ruhdan düşməməlidir. Qalib gələcəyimə inanırdım və özümü qələbəyə kökləmişdim. Bir idmançı üçün hər dəqiqənin, saniyənin böyük əhəmiyyəti olduğunu bir daha dərk etdim. Mübarizliyimi sona qədər davam etdirməyim, rəqibi texniki və sürət cəhətdən qabaqlamağım mənə qızıl medal qazandırdı. Onu da deyim ki, 2019-cu ildə bizi sınağa çəkəcək məsul yarışlar gözləyir. İkinci Avropa Oyunlarına, Avropa və dünya çempionatlarına, "Tokio-2020"-yə lisenziya qazandıran yarışlara yüksək səviyyədə hazırlaşmalıyıq. Bizə bəslənilən ümidləri doğrultmaq üçün bundan sonra da üzərimizdə səylə çalışacağıq".

İdmançılarımız ölkə səviyyəsində idmana göstərilən qayğının yüksək olduğunu deyərək, gənclərin inkişaf etməsi, uğur qazanması üçün hər sahədə istənilən şəraitin yaradıldığına görə dövlət başçısına minnətdarlıqlarını bildirdilər.

Müsahiblərim onu da qeyd etdilər ki, hərbçilərimizin idmanla peşəkar səviyyədə məşğul olmasında Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunun böyük rolu var. "MOİK-də peşəkar və təcrübəli məşqçilər tərəfindən yetişdirilən hərbçi-idmançılar müxtəlif beynəlxalq yarışlarda ölkəmizi layiqincə təmsil edirlər. Onlar Olimpiya oyunlarında, Dünya və Avropa çempionatlarında və digər beynəlxalq turnirlərdə ölkəmizə qələbə sevinci yaşadırlar. Həmçinin Azərbaycan milli yığma komandasının əksər üzvləri də Mərkəzi Ordu İdman Klubunun yetirmələridir."

Gənclərimizin uğurlarına sevindikcə, fərəhdən gözlərin dolur, ölkənlə, ordunla, zabitinlə bir daha fəxr edirsən. Bu cür nailiyyətlər onun göstəricisidir ki, ölkə rəhbərliyi tərəfindən hər bir vətəndaşa, hər bir peşə sahibinə yüksək diqqət və qayğı göstərilir, onların inkişafı üçün hər cür şərait yaradılır.

**Leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu"**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Samir HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 1037
Nüsxə 3525